## Azərbaycan dili

1. [x’] səsi olan sözləri müəyyən edin.
1. tələskənlik 2. genetika
3. təkbətək 4. təpik
5. təzəlikcə
A) 1, 2, 3 B) 2, 4, 5 C) 1, 3, 4
D) 1, 4, 5 E) 1, 3, 5

2. Nümunələrdən birində yalnız leksik mənaya malik olan sözlər işlənmişdir:
A) Necə danışmışdıqsa, elə həll edin.
B) Gəl mehriban danışıb, mehriban gülək.
C) Bəli, sizin dediklərinizlə razılaşıram.
D) Sən nə danışırsan, qardaş, heç elə şey olar?
E) Vallah, sənin dediklərindən sıxıldım.

3. Hansı cümlədə sadə və düzəltmə söz ***yoxdur***?
A) Meşəbəyi yuxarıdakı soyuqbulağı deyirdi.
B) Eloğlular bir qədər söhbət etdilər.
C) Uşağın elədikləri peşmanlıq yaratdı.
D) Kürdoğlu səssiz dayanmışdı.
E) Vətənpərvərlik yaxşı oxumaq və ya zəif oxumaqla deyil.

4. Cümlələrin birində isim ***olmayan***, amma ismin xüsusiyyətlərini daşıyan üç söz vardır:
A) Qalibləri hava limanında təntənə ilə qarşıladılar.
B) Meydançadakı onbirincilər təlim keçirdilər.
C) Qazandıqlarımın çoxunu balacalara xərcləyirdim.
D) Yalquzaqlar sürünün qaydalarına tabe olmayanlardır.
E) Azadlıq yarışı sonda xalqı azadlığa çıxardar.

5. Hansı cümlədə iki vergülə ehtiyac var?
A) Elə bil duyğular korşalıb nədir?
B) Bu dağlar bu təpələr vulkanların püskürməsindən yaranıb.
C) İlahi mən niyə şair doğuldum?
D) Xeyr mən dediklərinizi təəssüf ki edə bilməyəcəyəm.
E) Axı bura məncə minalı sahədir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

6. Cədvələ əsasən uyğunlaşdırın:
● Məsdər
● Feili sifət
● Feili bağlama

| Yalnız birinə aid fikirdir. | Yalnız ikisinə aid fikirdir. | Hər üçünə aid fikirdir. |
|---|---|---|
| 1. Zaman məzmunu ifadə etmir.<br>2. Tərkib yaradır. | 3. Cümlənin yalnız zərfliyi olur.<br>4. Cümlənin qrammatik əsasının ifadə vasitəsi ola bilir. | 5. Yalnız qrammatik şəkilçilərlə düzəlir.<br>6. Qoşmalarla işlənir. |

A) 1, 4, 5 B) 2, 3, 6 C) 1, 2, 6
D) 3, 4, 5 E) 1, 3, 4

7. Hansı fikir sözlərin heç birinə aid ***deyil***?
1. barəsində 2. gülərkən
3. gələsidir 4. gecə
A) İki müxtəlif nitq hissəi kimi düşünülə bilər.
B) Yalnız feili xəbər ola bilir.
C) Yalnız qrammatik mənası var.
D) İsmin xüsusiyyətini qəbul etmiş sifətdir.
E) İki nitq hissəsinin xüsusiyyətini daşıyır.

8. Fərqləndirilmiş sözlərin birində bir-biri ilə omonim olan şəkilçilər işlənmişdir:
A) <u>Birincilərin</u> sevinci hədsiz idi.
B) Natiq xitabət <u>kürsüsünə</u> çıxdı.
C) <u>Qazıntını</u> vaxtında qurtardılar.
D) <u>Oyunçunun</u> davranışları tamaşaçılar tərəfindən alqışlandı.
E) Çiçəkləri <u>güldandan</u> götürdüm.

9. Biri digərləri ilə eyniköklü ***deyil***:
A) soyuqlamaq B) soyuducu
C) soyutmaq D) soyulmaq
E) soyuq

10. Klasteri hansı fikirlər tamamlaya bilər?

| Müəyyən yiyəlik hallı isim qeyri-müəyyən yiyəlik hallı isimdən fərqli olaraq ... | |
|---|---|

1. ... mənsubiyyət hallı isim tələb etmir.
2. ... təsriflənən feillərlə sintaktik əlaqədə olur.
3. ... müstəqil cümlə üzvü ola bilir.
4. ... özünəməxsus şəkilçisi var.
A) 1, 2 B) 3, 4 C) 2, 4
D) 1, 4 E) 2, 3

11. Hansı cümlədə feili sifət feili bağlamanın sintaktik vəzifəsindədir?
A) Bunlar çox dadlı, yeməli meyvələrdir.
B) Neçə gündür səni oxuyan görürəm.
C) Nazlı gördüklərini anasına danışdı.
D) Yayda oxuyacağım kitabları seçdim.
E) Onuncuların hazırladığı tamaşa hamının xoşuna gəldi.

12. Verilmiş cümlədə işlənmiş nitq hissələrinin ardıcıllığını müəyyən edin.
*Səmanın ürəkləri oxşayan məlahətli səsi də eşidənləri valeh edirdi.*
A) isim, isim, feil, sifət, isim, bağlayıcı, feil, feil
B) feil, sifət, isim, ədat, feil, isim, xəbər
C) isim, isim, sifət, sifət, isim, bağlayıcı, isim, feil
D) sifət, sifət, isim, ədat, isim, feil
E) isim, sifət, zərf, isim, bağlayıcı, sifət, feil

13. Hansı cümlədə “o” əvəzliyi yalnız şəxs əvəzliyi kimi düşünülə bilər? (Durğu işarələri buraxılmışdır)
A) O döngədə Adili görüb maşını saxladı.
B) O evin qabağında xeyli var-gəl etdi.
C) O kəndə sarı getdi.
D) O deyilən məsləhətləri xeyli götür-qoy etdi.
E) O bu yerlərə çoxdan idi ki, gəlmirdi.

14. Hansı sözün leksik mənasını həm antonimi, həm də sinonimi ilə izah etmək olar?
A) qranit B) hekayə C) güney
D) gülab E) dünən

15. Uyğunluğu müəyyən edin.
1., 2.

a. Rüstəm kişi, elə güman edirsən ki, səndən savayı iş üçün yanan yoxdur.
b. Yüz il də əlləşsəm, nənəm qədər sənə qulluq edə bilmərəm.
c. Anasını çağırmaq istəyirdi ki, tanımadığı iki adam içəri girdi.
d. Əjdər çox yorulmuşdu, ona görə ki gün ərzində dayanmadan çalışmışdı.
e. Görünür, onun qayıtmağından heç kəsin xəbəri yox idi.
A) 1-a, d; 2-b, c, e B) 1-a, b; 2-d, c
C) 1-a, d, e; 2-b, c D) 1-a, d; 2-b, c
E) 1-b, c; 2-a, d

16. Nümunədə işlənmiş feillərdən biri fərqli məna növündədir:
A) Gözüm sulandı. B) Qapılar bağlandı.
C) Maşınlar yollandı. D) Zəmilər ayaqlandı.
E) Yeməklər paylandı.

17. Biri sadə cümlə ***deyil***:
A) Söyüd ağacı sanki küsmüş, saçlarını üzünə tökmüşdü.
B) Qaranlıqda keçidi tapa bilmədik, səhəri gözləməli olduq.
C) Fərid bacarıqlı oğlandır, amma bir az tənbəlliyi var.
D) Uzaqdan gələn maşının sürəti diqqətimi cəlb etdi.
E) Mənim qibləgahım buradır - teatrdır.

18. Verilmiş fikirdə nöqtələrin yerinə yazılmalıdır:
*Bir əsərin, nitqin və s. qısa məzmununu, nəticəsini, .... əks etdirən hissə ... adlanır.*
A) mənasını, tezis
B) əsasını, müddəa
C) dəqiqliyini, fakt
D) özəyini, tezis
E) mahiyyətini, xülasə

19. Ədəbi dilin normaları tələb edir:
1. sözlərin hansı nitq hissələrinə aidliyini
2. sözlərin düzgün yazılış və tələffüz qaydalarını
3. obrazlılığın hansı vasitələrlə yarandığını
4. sözün mənasına bələd olmağı və onun düzgün yerində işlətməyi
5. sözlər və cümlələr arasında əlaqələrin düzgün qurulmasını
A) 1, 2, 4 B) 2, 4, 5 C) 2, 3, 5
D) 1, 3, 4 E) 1, 3, 5

20. Cədvələ uyğun olan fikirləri müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. *Ha* ədatdır, yalnız əmr cümlələrində işlənir.<br>2. *Gəlin* ədat və feil kimi işlənə bilir.<br>3. *Bircə* ədat və düzəltmə say kimi işlənir. | 4. *Müxtəsər* sözü modal söz və sifət kimi omonimlik xüsusiyyətinə malikdir.<br>5. Bəzi modal sözlərdə vergüldən istifadə edilmir.<br>6. *Doğrudur* modal söz kimi cümlənin xəbəri olur. |

A) 1, 2, 3 B) 4, 5, 6 C) 2, 4, 6
D) 1, 3, 5 E) 2, 3, 4

21. Hansı tabeli mürəkkəb cümlənin tərəfləri sadə cümlənin şəxsə görə eyni növündədir?
A) İzah etməyə çalışırdılar ki, Kürdən o yana hökumət torpağıdır.
B) Hər kəs bilməlidir ki, pilləkənə ayağı bir-bir qoyarlar.
C) Müəllim danışdı, uşaqlar diqqətlə qulaq asdı.
D) Həyatda elə hadisələr olur ki, onlar heç vaxt unudulmur.
E) Nə gözlərim səni görsün, nə könlüm qubar eyləsin.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

22. Eyler-Venn diaqramının ortaq dairəsinə yazıla ***bilməz***:




A) Hərəkət bildirir.
B) Hərəkətə aid olur.
C) Zaman məzmunu bildirir.
D) Cümlədə zərflik olur.
E) Quruluşca sadə, düzəltmə və mürəkkəb olur.

**Açıq tipli test tapşırıqları:**

23. Hansı tabeli mürəkkəb cümlələrdə bağlayıcı vasitə bağlayıcı söz ***deyil***?
1. Hara istəsə, gedə bilər.
2. O zaman qayıdaram ki, ədalət yerini tutsun.
3. Kim bilirdi, qonaqlar bu gün gələcək?
4. Nə qədər lazımdır, o qədər də götür.
5. Hansı çantanı istəyirsən, o çantanı da alaq.

24. Yazının yaranma ardıcıllığını nəzərə alaraq sıralayın.
1. Bir neçə səsi bir işarə verir.
2. Gəlinlik satılan yerdə vitrindəki gəlinlik.
3. Bir işarənin bir səsi bildirməsi.
4. Dərman preparatının qoyulduğu qabın üstündə qızıl aypara şəkli.

25. Hansı sözlərdə eyni hərf buraxılmışdır?
1. gü...bəz 2. qu...bara 3. sü...bül
4. en...i 5. tə...bəl

26. Hansı cümlələrdə əvəzlik sifəti əvəz etmişdir?
1. Hər kim yüz il yaşamasa, günah onun özündədir.
2. Bəzi kitabları oxumağa ehtiyac yoxdur.
3. Bu dünyanın qara daşı göyərməz.
4. Eləsi var ki, salam verməк istəmirsən.
5. Belə deyirlər ki, ağladır yeri, sizin Qarabağın xanəndələri.

27. Sadə cümlənin şəxsə görə növləri üzrə uyğunluğu müəyyən edin.
1. Uman yerdən küsərlər.
2. Yaralı əsgərin tərxis edilməsinə qərar verildi.
3. Yaxşı, yaxşı, hirslənmə.
a. Sabah, ekskursiyaya gediləcək.
b. Əsgərləri göndərdilər ön cəbhəyə.
c. Çətinliyin qarşısında gərək titrəməyəsən.
d. Xəzərin sahili tənha, kimsəsiz.
e. Avropa qaydası ilə bəzənmiş otaqda oturmuşduq.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

***Mətni diqqətlə oxuyun və tapşırıqları yeirnə yetirin.***

Məşhur fransız rəssamı Anri Matiss məşhur fransız rəssamı Ogüst Renuardan 28 yaş gənc olsa da, onunla çox yaxın dost idi. Buna görə də Matiss tez-tez Renuarın yanına gedir, onu tək qoymaq istəmirdi. Ancaq həyatının son illərinə yaxın Renuar Cənubi Fransadakı kəndlərdən birinə köçdü və ömrünün son on ilini, demək olar ki, evindən bayıra çıxmadı. Matiss isə yenə də hər gün onun yanına gedir və dostunu tək qoymurdu. Ancaq Renuarı təkcə təklik yox, revmatizm də əldən *salmışdı*[1]. Hətta ilk vaxtlar Renuar, demək olar ki, nə əllərini, nə də ayaqlarını hərəkət etdirə bilmirdi. Ancaq bu *ağır*[2] xəstəliyə baxmayaraq, o fırçasını əlinə *bağlayır*[3] və yenə də rəsm çəkməyə çalışırdı. Bir gün Matiss yaşlı rəssamı rəsm çəkərkən *çəkdiyi*[4] əzablara tamaşa edərkən dözə bilməyib soruşdu:

- Dostum, sən ki, belə bu qədər əziyyət çəkirsən, bəs niyə rəsm çəkməkdə davam edirsən?

- Çünki *ağrı*[5] keçir, gözəllik qalır.

Bu sözlərin nəticəsidir ki, Renuar ömrünün sonuna qədər rəsm çəkməkdə davam edir. Hətta ən məşhur rəsmlərindən birini bu ağır xəstəliyə tutulandan 14 il sonra tamamladı. İki il sonra isə əbədi olaraq həyata gözlərini yumdu.

28. Mətndə üstündə rəqəmlər yazılmış sözlərin həqiqi və yaxud məcazi mənada işləndiyini qeyd edin.
Həqiqi mənada –
Məcazi mənada –

29. Mətndə birinci abzas kimi verilmiş hissə iki abzasdan ibarətdir. İkinci abzasın hansı söz və ya ifadə ilə başladığını yazın.

30. Mətndə altından xətt çəkilmiş cümlədə uyğun düzəlişlər (yalnız qüsurlu məqamlarda) etməklə cümləni yenidən yazın.

## Tarix

31. Kirmanşah, Rəşt, Gəncə müqavilələrinin oxşar cəhətlərini müəyyən edin:
1. Səfəvi ilə Osmanlı arasında imzalandı
2. Nadir xanın fəaliyyəti dövründə imzalandı
3. İşğal edilmiş Səfəvi torpaqları geri qaytarıldı
4. II Təhmasib tərəfindən imzalandı
5. XVIII əsrin 30-cu illərində imzalandı
A) 2,5 B) 2,3,4 C) 1,3 D) 1,4,5 E) 2,4

32. Uyğunluğu müəyyən edin:




A) 1-c; 2-b,c B) 1-a,b; 2-a,b
C) 1-a,c; 2-b D) 1-a; 2-a
E) 1-c; 2-a,b

33. *O, türkmənşəli sülaləyə mənsub olub, sasanilərlə qohumluq əlaqələrinə malik idi. Xristianlıqdan imtina etmiş və zərdüştiliyi qəbul etmişdi. Qohumu Sasani şahı II Yezdigərdin vəfatından sonra o, zərdüştilikdən imtina edərək Sasani hakimiyyətindən çıxdı. Cora dərəsini (Dərbənd keçidi) tutdu, massagetləri öz tərəfinə çəkdi.*
Mətndə fəaliyyətindən bəhs edilən hökmdardan fərqli olaraq Alban hökmdarı Cavanşir:
1. Albaniya dövlətini idarə etmişdi
2. Hunlar ilə mübarizə aparmışdı
3. Mihranilər sülaləsinə mənsub idi
4. Xəzərləri məğlub etmişdi
5. Sasanilərin təzyiqi ilə hakimiyyətdən əl çəkdi
A) 1,3 B) 1,4 C) 3,5
D) 2,5 E) 3,4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

34. Hadisə - nəticə əlaqələrinə aid uyğunluğu müəyyən edin:
A) Heysəm ibn Xalidin özünü müstəqil hakim elan etməsi – Azərbaycanın vahid dövlətin tərkibində birləşdirilməsi
B) Xilafətin mərkəzində türklərin qiyamının baş verməsi – Haşim ibn Surakanın Dərbəndin müstəqil idarə edilməsinə nail olması
C) Yusif ibn Əbu Sacın hakimiyyətə gəlməsi – Xəzər dənizində ticarət gəmilərinin üzməyə başlaması
D) Slavyanların Bərdə şəhərinə hücum etməsi – Şəddadilər dövlətinin süqut etməsi
E) Araz çayı üzərində Xudafərin körpüsünün salınması – alan yürüşlərinin qarşısının alınması

35. Xəritədə ərazisi ştirxlənmiş dövlətə aid hadisələri müəyyən edin:



1. TANAP-ın açılış mərasimi keçirilməsi
2. ATƏM-in Minsk qrupu həmsədrləri təsisatının yaradılması
3. Bakı – Tibilisi – Ceyhan boru xəttinin çəkilməsi ilə bağlı saziş imzalanması
4. 1998-ci ildə "Böyük İpək yolu" Beynəlxalq konfransının keçirilməsi
5. "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin qəbul edilməsi
A) 1,5 B) 2,3 C) 1,2
D) 1,3 E) 4,5

36. Mesopotamiyanın təbii mühiti üçün xarakterik ***deyil:***
1. Müdafiə üçün heç bir təbii maneələrin olmaması
2. Təbii ehtiyatlar, tikinti və s. zəruri materialların məhdud olması
3. Quraqlıq və çay daşqınları
4. Əkinçilik üçün yararlı münbit torpaqların olmaması
5. Tikintidə təbii daşlardan istifadə edilməsi
A) 4,5 B) 1,2 C) 2,3
D) 3,5 E) 3,4

37. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a) II İrakli ilə mübarizə aparmışdır
b) Bir müddət kihakimiyyətlilik mövcud idi
c) "Bayat savaşı"da uğursuz oldu
d) Əfşar və Qacar sülalələri hakimiyyətdə olmuşdu
e) Təbrizə yürüş etmişdir

A) 1-b; 2-c; 3-d;4-a
B) 1-c; 2-d; 3-e;4-a
C) 1-a,c; 2-b; 3-d;4-e
D) 1-d; 2-b; 3-c,e;4-a
E) 1-e; 2-c; 3-a,b;4-d

38. XVII əsrin əvvəllərində İngiltərədə siyasi yenilik:
A) Respublika elan olunması
B) Otuzillik müharibənin başa çatması
C) Yelizavetanın fəaliyyətə başlaması
D) Aqrar inqilabın başlanması
E) Stüartlar sülaləsinin hakimiyyətə gəlməsi

39. Uyğunluğu müəyyən edin:

Osmanlı imperiyası

| **1.** XVI əsrin I yarısı | **2.** XVI əsrin II yarısı |
|---|---|
| a. Misirin ələ keçirilməsi<br><br>b. Təbrizin tutulması<br><br>c. Köprülü Mehmet paşanın fəaliyyəti | a. Kipr adasının fəth olunması<br><br>b. İspan donanmasının məğlub edilməsi<br><br>c. Durğunluq dövrünün başlanması |

A) 1-a,b; 2-a,c
B) 1-c; 2-b
C) 1-a; 2- b,c
D) 1-b; 2-a,b
E) 1-c,b; 2-c

40. Ərazisi rəqəmlər ilə işarələnmiş ərazilərdə mövcud olmuş orta əsr dövlətlərinə aid uyğunluğu müəyyən edin:




a. Ən təhlükəli rəqibi Sasani dövləti idi
b. Ərazisində VI əsrin ortalarında Slavyanlar məskunlaşmışdı
c. Roma imperatorundan sonra Qərbi Avropanı birləşdirən ilk dövlət oldu
d. Saks tayfalarına qarşı mübarizədə qalib gəldi
e. Ərəb hücumları nəticəsində süquta uğradı

A) 1-a,e;2-c,d
B) 1-c;2-a
C) 1-c,d;2- a,b
D) 1-b,c;2-d,e
E) 1-a,b;2-a,e

41. Sevr müqaviləsindən fərqli olaraq Lozanna sülh müqaviləsinə aiddir:
A) Sultan hökuməti ilə Antanta dövlətləri arasında imzalandı
B) Osmanlı ərazisində Ermənistan və Kürdüstan dövlətləri yaradılmalı idi
C) Sultan hakimiyyəti ləğv edildi
D) TBMM hökuməti müqaviləni qəbul etmədi
E) Türkiyənin müstəqilliyi və ərazi bütövlüyü tanındı

42. Hadisə və nəticə əlaqələrini tamamlayın:

| Hadisə | Nəticə |
|---|---|
| 1 | Teymurilər dövlətinin süquta uğraması |
| 2 | Qızıl Ordu dövlətində türkləşmə prosesi başa çatdı |

a. Əhməd xanın Uqra çayı sahilində toqquşmadan çəkinməsi
b. Şeybanilərin Xorasanı və Heratı ələ keçirməsi
c. Sərbədarilərin hakimiyyətinin Mavəraənnəhrə yayılması
d. Özbək xanın islam dinini rəsmi din elan etməsi

A) 1-a;2-c
B) 1-b;2-d
C) 1-b;2-c
D) 1-a;2-d
E) 1-d;2-b

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

43. Azərbaycan tarixinin XII əsrin 20-ci illəri və 60-cı illərinə aid oxşar cəhət:
A) Yeni dövlətin əsasının qoyulması
B) Slavyan hücumuna məruz qalması
C) Vahid dövlətin tərkibində birləşdirilməsi
D) Gürcü yürüşünə məruz qalması
E) Səlcuq dövləti ilə dostluq münasibətlərinin qurulması

44. Aşağıdakı bəndləri sxemə uyğunlaşdırın:




a. Böyük Britaniyaya qarşı “Qitə blokadası”na qoşuldu
b. Dekabristlər üsyanı baş verdi
c. Elzas və Lotaringiya vilayətlərini Fransadan aldı
d. Bütün Qafqazın işğalı başa çatdırıldı
e. Sənaye istehsalının həcminə görə dünyada birinci yerdə idi
A) 1-c;2-d
B) 1-e;2-b,d
C) 1-a;2-b
D) 1-b;2-e
E) 1-a,c;2-d,e

45. I Dünya müharibəsi illərində ABŞ üçün xarakterikdir:
A) 1918-ci ilin martında müharibədən çıxdı
B) Böyük Britaniya ilə “Atlantika xartiyası” adlanan sənəd imzaladı
C) Ticarət gəmilərinin vurulması bitərəflikdən imtina edərək Almaniyaya müharibə elan etməsinə səbəb oldu
D) Marna döyüşündə Almanların məğlub edilməsi
E) Belçikanın bitərəfliyini qorumaqla bağlı müqavilə öhdəliyi var idi

46. Strezada keçirilən konfransa aiddir:
1. Avstriyanın ərazi bütövlüyü təminat altına götürüldü
2. “Antikomitern” paktı imzalandı
3. Fransa, İngiltərə və İtaliyanın iştirakı ilə keçirildi
4. Polşanın Almaniya və SSRİ arasında bölüşdürülməsi razılaşdırıldı
A) 1,2
B) 3,4
C) 1,3
D) 2,4
E) 2,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

47. Səbəb – nəticə əlaqələrinə aid uyğun bəndi müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| A) | Şimali İrlandiya katolik azlığının vətəndaş bərabərliyi uğrunda mübarizəsi | B.Britaniyanın AİB-ə daxil olması |
| B) | Əlcəzairdə etiraz çıxışlarının baş verməsi | Fransada V Respublikanın süqutu |
| C) | Berlin divarının çəkilməsi | ABŞ-nin “Marşal planı” çərçivəsində Almaniyaya yardım göstərməsi |
| D) | Folklend böhranı | Böyük Britaniyanın beynəlxalq aləmdə siyasi dirçəlişinin nümayişi |
| E) | ABŞ qoşunlarının Vyetnamdan çıxarılması | Riçard Niksonun istefa verməyə məcbur olması |

48. 1840-cı il İnzibati – məhkəmə islahatı ilə “erməni vilayəti”nin ləğv edildiyi əraziləri müəyyən edin:




A) 1,9,10
B) 2,5
C) 6,4,7
D) 3,5
E) 4,8

49. Difai və Müsavat partiyası üçün oxşar cəhətdir:
A) Müstəqillik uğrunda mübarizə aparan müsəlman xalqlarına yardım göstərilməsi
B) Dövlət Dumasına 1906-cı il seçkilərində iştirak etmələri
C) Məhəmməd Əmin Rəsulzadə tərəfindən yaradılması
D) Bolşeviklərin təsiri altına düşməsi ilə ləğv edildi
E) Rusiya müsəlmanlarının I qurultayının təşkil edilməsi

t.me/BirlikTeam1

50. Cədvələ əsasən doğru bəndləri müəyyən edin:

| **1. AXC-nin sosial – iqtisadi siyasəti** | **2. AXC-nin mədəni quruculuq tədbirləri** |
|---|---|
| a. Müsəlman korpusunun Əlahiddə Azərbaycan Korpusu adlandırılması | a. Məktəblərin milliləşdirilməsi haqqında qərar qəbul edilməsi |
| b. Dövlət bankının fəaliyyətə başlaması | b. “Müsəlman Şərqini öyrənən cəmiyyət”in yaradılması |
| c. “Taxıl ticarətinin dövlət inhisarına alınması haqqında” dekret qəbul edilməsi | c. Ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya keçilməsi |

A) 1-a;2-b
B) 1-b,c;2-a,b
C) 1-c;2-a
D) 1-c;2-c
E) 1-b;2-a,b

51. II Dünya müharibəsindən sonra çəkilmiş Azərbaycan filmlərindən ***deyil:***
A) “Qızmar günəş altında”
B) “Uzaq sahillərdə”
C) “Neft və milyonlar səltənətində”
D) “Ögey ana”
E) “Axırıncı aşırım”

52. 2021-ci il Sentyabrın 27-də:
A) Suqovuşan azad edildi
B) Türkiyə - Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başladı
C) “Şuşa Bəyannaməsi” adlı tarixi sənəd imzalandı
D) Zəngilanın Ağalı kəndinə qayıdış baş tutdu
E) Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməli qoyuldu

**Açıq tipli test tapşırıqları:**

53. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Cəlaləddinə qarşı Gəncə üsyanı
2. Canı bəyin Çobani hakimiyyətinə son qoyması
3. Cəlairilərin Azərbaycanda hakimiyyətinə son qoyulması
4. Hülakülər dövlətində vahid pul sisteminin yaradılması

54. II Dünya müharibəsi illərində ABŞ və SSRİ üçün oxşar cəhətlər:
1. Şovinist siyasət yürüdülməsi
2. Birləşmiş Millətlər bəyannaməsinin imzalanması
3. Yaponiya ilə hücum etməmək haqqında müqavilə imzalanması
4. 1941-ci ildə müharibəyə qoşulmaları
5. “Üçlər paktı” adlanan müqavilənin imzalanması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

55. Uyğunluğu müəyyən edin:
1. Kəmaləddin Behzad – Təbrizdə saray kitabxanasının rəisi
2. Həsən bəy Rumlu – “Əhsən-ət-Təvarix”
3. Fəzlullah Rəşidəddin – “Cəmi-ət-Təvarix”
4. N.Tusi – Təbrizin Rəbi-Rəşidi məhəlləsində ali mədrəsə
5. Yusif ibn Əhməd – “Əxlaqi-Nasiri”

56. Xəritədə ərazisi ulduz ilə işarələnmiş dövlətin XIX əsr tarixinə aiddir:



1. Tilzit sülhünün bağlanması
2. Sadova döyüşündə Almaniyanın məğlub edilməsi
3. “Üçlər ittifaqı”na daxil olması
4. Sənaye çevrilişinin başlanması
5. Yaponiyaya məğlub olması

57. Tarixi şəxsiyyətlərin fəaliyyətinə dair uyğunluğu müəyyən edin:
*1. Perikl*
*2. II Filipp*
*3. Pompey*
a. Qay Yuli Sezarın qüvvələri tərəfindən məğlub edildi
b. E.ə 44-cü ildə Senatda öldürüldü
c. Respublikaçılara qalib gələrək senatın səlahiyyətlərini məhdudlaşdırdı
d. E.ə IV əsrin ikinci yarısında hakimiyyətdə idi
e. Afina vətəndaşlarının idarəetmədə iştirakı genişləndi

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *__Cavab vərəqində__* cavablandırın.**

*Papadan Konstantinopolun möhtəşəm İmperatoruna (Lateran Sarayı, 16 noyabr 1202).* Zara şəhərinin süqutundan bir həftə əvvəl yazılmış bu məktub, yürüşün istiqamətinin dəyişdirilməsi ilə bağlı əsas sübutlardan biri olmaqla yanaşı, Papanın Almaniyadakı mübahisəli imperiya varisliyinə dair baxışının mühüm göstəricisidir.

*“Məktubunuzu və elçilərinizi imperatorluq nüfuzunuza yaraşan bir ehtiramla qəbul etdik; həm həmin elçilərin bizə təqdim etmək istədikləri məsələləri, həm də məktubların məzmununu diqqətlə nəzərdən keçirdik. Elçiləriniz bildirdilər ki, Müqəddəs Torpağın yardımına gələn xristian ordusu sizin alihəzrətlərinizin ərazisinə hücum etməyə və xristianlara qarşı silaha sarılmağa üstünlük verdiyi üçün, onları bu niyyətlərindən çəkindirmək bizim vəzifəmizə uyğundur; belə ki, əllərini xristian qanına bulamaqla həm Tanrının qəzəbinə tuş gəlməsinlər, həm də xeyli dərəcədə zəifləyərək Məsih düşmənlərinə hücum etmək iqtidarında olmasınlar.”*

58. Tarixi biliklərinizə əsasən bəhs edilən yürüş istiqamətinin hansı şəhərə doğru dəyişdirildiyini müəyyən edin:

59. Mənbədə qeyd edilən ildə başlayan yürüşün nəticələrini müəyyən edin: (azı iki nəticə)

60. Tarixi biliklərinizə əsasən mənbədə bəhs edilən yürüş istiqamətinin dəyişdirilməsinin səbəblərini müəyyən edin: (azı iki səbəb)

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Ədəbiyyat

61. “İstiqlal” (B. Vahabzadə) poeması haqqında doğru fikri müəyyən edin.
A) “Axı biz neyləmişik?” sualına cavab axtarılır.
B) “Təpə önündəki məğlubiyyət” misrası ilə müəllif sovetin etdiyi qırğınları qabardır, insanları düşmənə nifrətə cəlb edir.
C) Müəllif “Şəhidlər” əsərini xatırlayaraq həmin gecə baş verənləri Tomrislərin, Koroğluların ruhuna toxunulduğunu qeyd edir.
D) Dilimizin öz varlığını daha çox sadə xalqın danışığında qoruyub saxlaması fikri vurğulanır.
E) Şeir vahidi bənd olan əsərdə vahid süjet xəttinə yer verilmişdir.

62. “Talvar” (Elçin) hekayəsinin məzmununa aid doğru fikri müəyyən edin.
A) Əliabbas kişi atasının işini davam etdirmişdi.
B) Xartutun yüz yaşı tamam olanda plov bişirmək el adəti idi.
C) “İsgəndərə qalmayan dünya kimə kimə qalacaq?” fikri Əliabbas kişiyə aid idi.
D) Əliabbas kişinin Fətullanın üzərinə düşən qırmızı ləkədən ürəyinə bir narahatlıq çökür.
E) Əsərin vahid süjet xətti mövcuddur.

63. “Manqurt” (Ç. Aytmatov) əsərinin məzmunu ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Jolaman yaralananda atı döyüşün hay-həşirindən qorxub Jolamanla birlikdə düşmən tərəfə qaçır.
B) Sövdəgərlərin danışığını eşidən Nayman-ana Ağmayanı hazırlayıb səfərə çıxır.
C) Nayman-ananın oxuduğu layla manqurta az da olsa təsir edir.
D) Juanjuanlar manqurtu başa salırlar ki, yanına gələn qadın onu öldürmək üçün gəlir.
E) Nayman-ana oğlu atasının qisasını almaq üçün döyüşə gedir.

64. “Çinar ömrü” (R.Rza) əsərinin təhlilinə aid ***səhv*** fikirləri müəyyən edin.
1. Çinardan sonra geriyə bir arzu qalır: “Kaş bir il də yaşayaydı”.
2. Çinar hiss edir ki, ölüm onunla yarpaq-yarpaq, pöhrə-pöhrə yol keçir.
3. İnsanlar elə düşünürdü ki, çinarın heç nədən gileyi olmayıb, lakin çinar laqeydlikdən narazı idi.
4. Təsvir edilən çinarın yoxuşu şərəfli, enişi də dözümlüdür.
5. Çinardan sonra onun “Mən kökümlə bu torpağa bağlayam” sözləri ilə vətənə bağlılıq ifadə olunur.
A) 2,4,5 B) 2,3,5 C) 1,2,5
D) 1,3,4 E) 2,3,4

65. "İskəndərnamə" (N.Gəncəvi) əsəri əsasında doğru fikri müəyyən edin

| | Səbəb | Nəticə |
|---|---|---|
| A) | İskəndər saraya elçi göndərir. | Elçinin kimliyi ifşa edilir. |
| B) | Nüşabə İskəndərin kimliyini sübut edir. | İskəndər ona müharibə elan edir. |
| C) | Pələngər Feyləqusun ölkəsinə hücum etmək istəyir. | Feyləqus Pələngərə xərac verir. |
| D) | İskəndərin şəkli özünə göstərilir. | İskəndər qorxuya düşür. |
| E) | İskəndər taxta çıxır. | Niqumaşı özünə tərbiyəçi təyin edir. |

66. Q. İlkinin "İntiqam" əsərindəki Xəzangül obrazı ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Övladını ermənilərin qəzəbindən qorumağa çalışır.
2. Cahangir Xəzangülün həyat yoldaşı idi, Gədəbəyə vuruşmağa getmişdi.
3. Qoca erməninin kürəyinə sancdığı bıçağı çıxarmağa cəhd etsə də, bunu bacarmır.
4. Ermənilər onun ailəsi ilə bağlı xatirələrini məhv edir.
5. Yaşlı erməni tərəfindən öldürülür.
6. Levon qoca Azərbaycan dilini bilən erməni idi.
A) 2,3,5 B) 3,4,5 C) 1,2,5
D) 1,2,4 E) 2,3,4

67. Cədvələ əsasən doğru fikri müəyyən edin.

| "Guş quş" (S.Ə.Şirvani) | "Qafqaz müsəlmanlarına xitab" (S.Ə.Şirvani) |
|---|---|
| 1. İctimai məzmunlu əsərdir, musiqini qəbul etməyənlər satirik dillə ifşa olunur. | 3. Əsərdə türk xalqlarının zillətdə qaldığı, elmdən kənarlaşdığından danışılır. |
| 2. Əsərdə müğənninin səsi Davudun səsinə bərabər tutulur. | 4. Millətin tərəqqiyə, inkişafa, xoşbəxt həyata yalnız elmə yiyələnməklə nail ola bilər. |
| 5. Əruz vəznində yazılmış bu əsərdə süjet xətti yoxdur.<br>6. Yazıldığı şeir şəkli müxtəlif janrlarda özünü göstərə bilər. | |

A) 4,5,6 B) 2,3,6 C) 2,4,5
D) 1,3,6 E) 3,4,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

68. "Hikmətin fəziləti" (A.Bakıxanov) əsəri ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Həkim öz üzüyünü şaha göndərərək ən müdrik adama verməsini istəyir.
B) İnsanda yaxşı sifət olduğunda dostun da, düşmənin də afərin deyəcəyi fikri vurğulanır.
C) Sabahına ümidi olmayan həkim şaha sifariş göndərir.
D) Hadisələr İranda baş verir.
E) Şah vəsiyyəti icra etmək üçün kənddən qocanı dəvət edir.

69. Cədvələ əsasən doğru fikri müəyyən edin.

| **"Salur Qazanın evinin yağmalandığı boy"** | **"Qazan bəyin oğlu Uruzun dustaq olduğu boy"** |
|---|---|
| 1. Qazan xanın övladı təhlükə qarşısında qalır, əsir düşür. | 3. Qardaşı Qaragünə Qazan bəyin yuxusunu yozur. |
| 2. Qazan xan yurda geri qayıdarkən təkbaşına gəlir. | 4. Qazan oğlunun qızıl dəstəli qılıncını tapınca oğlunun dustaq olduğunu anlayır. |
| 5. Valideyn narahatlığına yer verilən bu boyun müstəqil süjet xətti var.<br>6. Burla xatun hadisələrin gedişində iştirak edir. | |

A) 1,5,6 B) 2,5,6 C) 2,3,6
D) 3,4,5 E) 1,2,5

70. "Gün var əsrə bərabər" (Ç. Aytmatov) əsəri ilə bağlı doğru fikri müəyyən edin.
A) Ölünü basdıra bilməyib geri qaytarmaq Sabitcanın üzülməsinə səbəb olur.
B) Dünyada olmayanların unudulması, xatirələrdən silinməsi Sabitcan üçün təbii hal deyil.
C) Yedigey geri qayıdıb zonanın rəisini çağırır və ürəyindəkiləri ona danışır.
D) Yedigey Sabitcanı "manqurt" adlandırır.
E) Sabitcanın işgüzar görkəmi, savadlı nitqi onun üzünə her yerdə qapıları açır.

71. Cədvələ əsasən uyğunluğu müəyyən edin (“Əsgər məktubu”).

| Fikir | Doğru | Yanlış |
|---|---|---|
| A) Əsgər məktubu məhəbbət və cəsarət doludur. | | - |
| B) Əsgər qəlbində qopan zümzümə bir vətən daşını isidəcək. | | - |
| C) Əsgər yazır ki, nəğməsiz silahlar lal-kardır. | + | |
| D) Əsgər məktubunda torpaq göyərir, meşələr üfüqlərəcən uzanır. | | - |
| E) Əsgər məktubunda göyərən dağın ətəyi də, zirvəsi də Vətəndir. | + | |

72. Müqayisə cədvəlinə əsasən doğru fikirləri müəyyən edin.

| Süjet | Kompozisiya |
|---|---|
| 1. Bədii əsərdə hadisələrin müəyyən xətt üzrə inkişaf etdirilməsidir. | 3. Epiqraf süjetin müxtəlif mərhələlərində, bölmə başlığında verilə bilər. |
| 2. Proloqda hadisələrlə bağlı ilkin məlumat verilir, oxucu tanış edilir. | 4. Hadisələrin açılması mərhələsi finalda baş verir. |
| 5. Həm epik, həm də dramatik əsərlərdə ola bilər.<br>6. Yalnız nəsrlə yazılan əsərlərdə işlənir. | |

A) 2,3,6 B) 1,3,5 C) 1,5,6
D) 1,4,5 E) 2,4,5

73. “Ananın öyüdü” (S. Vurğun) əsərinə əsasən doğru fikri müəyyən edin.
A) Əsgər vətənin müdafiəsində ad-san qazanmışdır.
B) Müəllif müharibəni insanlıq üçün bəla, şər sayır.
C) Ananın qəlbi oğlunun igidliyindən ilham alınca ona: “Yaşa”, - deyib bağrına basır.
D) Övladını döyüşə yollayan ananın kədəri əks olunub.
E) Əsərdə xalq adətinə yer verilib.

74. “Azad” (M.İbrahimov) hekayəsindəki Azad obrazına aiddir:
A) Məktəbi sonacan oxuyur və xalq konqresinə nümayəndə seçilir.
B) Fərdanın dediklərinə daim qarşılıq verirdi.
C) Fərda ilə söhbətindən sonra xarakterində dəyişiklik baş verir.
D) Anası ilə birgə Təbrizdən köçməli olur.
E) Həyatın mənasını vətən üçün çalışmaqda görür.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

75. E. Heminqueyin “Qoca və dəniz” əsərinə əsasən ***yanlış*** fikri müəyyən edin.
A) Qoca dənizə sırf maddi qazanc yeri kimi yanaşmırdı.
B) Balıqçı oğlan Santyaqoya sardina tutmaq istəyir.
C) Qoca balıqçının halı balaca oğlanı kədərləndirirdi.
D) Səhər qoca balıq ovuna çıxanda artıq sahildə heç bir qayıq qalmamışdı.
E) Qanadlı balıqlara qocanın ayrıca bir sevgisi var idi, onlar balıqçının geniş okeanda əsl dostları idi.

76. “Ana” (H. Cavid) əsərinin məzmununa aid doğru fikri müəyyən edin.
1. Qanpoladla nişanlanmağından bir il keçməsi İsmətin öz dilindən verilir.
2. Səlma ana Səlimə gümüş xəncər hədiyyə edir.
3. Orxan rədd cavabı alarsa, İsmət və Qanpoladın sağ qalmayacağını söyləyir.
4. Səlma oğlunun öz intiqamını aldığını söyləyir.
5. İsmət sonda Orxanın verdiyi xəncərlə özünü öldürmək istəyir.
A) 1,3,4 B) 2,3,4 C) 1,2,5
D) 2,3,5 E) 1,4,5

77. “Ağac” (İ.Krılov) əsərinə aid doğru fikri müəyyən edin.
A) Kəndli ağacın istəyini yerinə yetirdiyinə peşman olur.
B) Ağacın səhvi ona müraciət edən kənlinin sözlərində göstərilir.
C) Əsər təmsil janrında, tərənnüm əsasında qələmə alınıb.
D) Əsərdə qafiyə quruluşu sərbəst şəkildədir.
E) Kəndlinin etdiyi hərəkətdə şəxsi mənfəəti yox idi.

78. Anarın “Keçən ilin son gecəsi” dramına əsasən doğru fikirləri müəyyən edin.
1. Həmidə xalanın dilindən əzizləməyə yer verilib.
2. Kasetdəki səs yazısında “*Əkil bəkil quş idi*” nümunəsi Dilarənin dilindən deyilir.
3. “Qara qızın dərdi varmış” deyən Həmidə xala Rüstəmin nişanlısından küsdüyünü ifadə edib.
4. Həmidə xala evdə tək qalsa da, övladlarından şikayətlənmir.
5. Poçtalyon Bəşir Həmidə xalaya qara qutudan-televizordan bərk yapışmağı məsləhət görür.
A) 1,2,5 B) 2,3,5 C) 1,4,5
D) 1,3,4 E) 2,3,4

79. "Dərs" (S. Əhmədli) əsəri ilə bağlı doğru fikri müəyyən edin.
A) Hansı məktəb işləməsəydi, müharibə vəziyyətinə görə güzəştə gedilirdi.
B) Təhsilin davam etməsini direktor əmr etmişdi.
C) Sonanın dərsə gəlməməsinin səbəbi əmisinin şəhid olması idi.
D) Partbiletlərin yandırılması həmin dövrdəki rejimə qarşı etiraz demək idi.
E) Əsər epik növdə olduğu üçün əsərdə təsvir və tərənnüm aparıcıdır.

80. "Ana" (C. Cabbarlı) şeirinin məzmununa aid doğru fikri müəyyən edin.
A) Əruz vəznində, müctəs bəhrində yazılmışdır.
B) Lirik qəhrəman o qabarlı əlləri qızıla tutmaq istəyir.
C) Müəllif təbiət hadisələrinin ən şiddətli hallarının belə ona təsir etmədiyini söyləyir.
D) Lirik qəhrəman özünü heç bir halda əyilməyən, məğrur biri kimi təsvir edir.
E) Müəllif analara qarşı əyilmək, onlara heykəl qoymaq arzusu ilə yaşayır.

81. "Türkün dili" (M. Şəhriyar) qəzəlinə əsasən ***yanlış*** fikirləri müəyyən edin.
1. Müəllifin şairlərə olan tövsiyəsi əks olunub.
2. Müəllif şeirdə satirik şairimiz M.Ə.Sabirə müraciət edərək əsl şairin paxıllıqdan uzaq olduğunu vurğulayır.
3. Türk xalqlarının folklorunu yaşadanlara qarşı çıxanları və dilə qadağa qoyanları müəllif tənqid edir.
4. Müəllifə görə, insan olmağın vacib meyarı zəlil xalqın əlindən tutub ona dayaq olmaqdır.
5. Əsərdə tam, natamam qafiyələrdən istifadə edilib, rədifdən istifadə edilməyib.
A) 1,2,5 B) 2,3,5 C) 1,4,5
D) 1,3,4 E) 2,3,4

82. "Vaqif" (S. Vurğun) əsərinə əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| **Doğrudur** | **Yanlışdır** |
|---|---|
| 1. Teymurun gətirdiyi xəbərdən aydınlaşır ki, Eldarın dəstəsi hücuma keçib. | 4. İlyas Eldarı öldürmək istəyəndə Kürd Musa onu öldürür. |
| 2. Qacar Vaqifi böyük təhlükə kimi dəyərləndirmir. | 5. "*Çarıqlı kiçik bir ölkə böyük Firdovsilər yaratdı bəlkə*?" fikri Qacarın dilindən verilir. |
| 3. Vaqif durnalara müraciətlə özünün xoşbəxt olub-olmadığını soruşur. | 6. Qocanın Qacara dediyi "Burada Koroğlular at oynatmışdır" misrasında kinayəyə yer verilib. |

A) 1,2,4 B) 1,3,4 C) 1,4,6
D) 3,5,6 E) 2,5,6

**Açıq tipli test tapşırıqları:**

83. C. Cabbarlı "Oqtay Eloğlu" əsərinə əsasən cədvəldəki uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. Bu obraz sözlərini düz demədiyi üçün çox fəna təsir bağışlayır və başmaqlarını evin yuxarı başında çıxarır. | Tamara |
| 2. Oqtayın qubernatoru təhqir etdiyi üçün sürgün edildiyi onun dilindən verilir. | Səməd |
| 3. "Biz analarımızı çarşaf içində cəhalətdə saxlamışıq" fikri bu obraza aiddir. | Aslan bəy |
| 4. Oqtayın Karlı ruslardan daha yaxşı oynadığı onun nitqində söylənir. | Firəngiz |
| 5. Xaspoladı savadsız adlandırır. | Mazandaranski |

84. "Şəhidlər" (B. Vahabzadə) poemasının təhlili ilə bağlı doğru fikirləri seçin.
1. Azadlıq toxumunu səpənlər tərənnüm olunur.
2. Müəllif vətənin ikiyə bölünməsindən ürək ağrısı ilə danışır.
3. Həmin gecə Nəsimidən Babəkdən xeyir-dua alınır.
4. Əsərdə gücsüzün güclüdən necə qisas aldığı vurğulanır.
5. Rusiya üçün çalışanların, can qoyanların özləri elə həmin gecə şəhid edildilər.

85. "Gələcək gün" (M.İbrahimov) əsərinə əsasən uyğunluqları müəyyən edin.

| **Doğrudur** | **Yanlışdır** |
|---|---|
| 1. Həsənalının dabanını ilan çalandan sonra Qəssab Alı özünün xahişi ilə onun ayağını kəsir.<br>2. Xalqın milli azadlıqla bağlı düşüncələri, üsyankar ruhu əyani göstərmə vasitəsilə aydınlaşdırılır. | 3. Hikmət İsfahani özündən sonra Kürd Əhmədi vəkil qoyur.<br>4. Firidunun anası Azərşəhri tərk etdikdən üç ay sonra Təbrizdə dünyasını dəyişir. |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

86. Verilmiş sxemə görə ***uyğunsuzluğu*** tapın.

| **“Koroğlu ilə Bolu bəy”** | **“Durna teli”** | **“Həmzənin Qıratı qaçırması”** |
|---|---|---|
| 1. Bolu bəy Həsən paşadan Qacar Alı və Mehtər Murtuzu istəyir.<br>2. Xotkarın oğlu Bürcü Sultanın adı çəkilir. | 3. Koroğluya zahirən bənzədilən obraz əsir düşür.<br>4. Çənlibeldə Koroğlunu Bolu bəyə nişan verən obrazın iştirakı var. | 5. Qorxudan qala bürcünə çıxan obrazın iştirakı var.<br>6. Toqatda məclis qurulur. |

87. M. Füzulinin “Leyli və Məcnun” əsərində iştirak edən obrazlarla bağlı uyğunluğu müəyyən edin.
1. Leylinin anası
2. Məcnunun atası
3. İbn Səlam
a. Dövrün tələbləri, əxlaqi-etik normaları ilə yaşayan obrazdır, mənfi planda təqdim olunub.
b. Aşiqliyin ailənin ar və namusu, yaxşı adı üçün təhlükə olduğunu söyləyir.
c. Dövrün adət-ənənələrinə əməl etməyi vacib sayır, övladının “xəstəliyinə” çarə axtarır.
d. Övladının eşqə düşməsi ilə bağlı yayılan xəbərləri qorxu və dəhşətlə qarşılayır.
e. Cəmiyyətin əxlaq və təfəkkür normalarını ifadə edir, saf məhəbbətlə sevir.

***Bir gecənin hekayəsi***

Dağların ətəyində yerləşən bir kənddə, yaşlı bir kişinin evində gecələdim. Bu evin sahibi – Murad – sakit görünüşünün arxasında dərin bir həyat hekayəsi gizlədən insan idi. Uşaqlığını çətinlik içində keçirmiş, atasını erkən itirmiş, anasının zəhməti ilə böyümüşdü. Gəncliyində şəhərə gedib oxumuş, amma tale onu yenidən doğma kəndinə qaytarmışdı.

Murad kənddə hamının hörmət etdiyi adam idi. O nə çox danışardı, nə də özünü göstərərdi, amma hər kəs onun sözünə güvənərdi. Günlərini bağda-bağçada işləməklə keçirər, axşamlar isə kəndin kənarına çıxıb uzun-uzadı düşünərdi. Onun baxışlarında sanki həm keçmişin kölgəsi, həm də gələcəyə uzanan ümid vardı.

Evin içində diqqətimi çəkən bir neçə şey oldu. Divardan köhnə bir saat asılmışdı – vaxtı göstərsə də, sanki keçmişi sayırdı. Masanın üstündə isə saralmış dəftər vardı. Bu dəftər onun illərlə yazıb sonra sildiyi düşüncələrinin səssiz şahidi idi.

Axşam yeməyindən sonra söhbətimiz açıldı. Murad az danışırdı, amma hər cümləsi düşünülmüş, ağır idi. Birdən söhbətin ortasında susdu. Gözlərini pəncərədən görünən qaranlığa zillədi. O an hiss etdim ki, o, yalnız bu otaqda deyil, xatirələrinin içində dolaşır.

Sükutu pozmaq üçün soruşdum: – Yazırsınız deyəsən?

Murad asta gülümsədi. Dəftəri əlinə alıb bir an baxdı: – Yazıram... amma çoxunu heç kim oxumur, – dedi.

Sonra səhifələri vərəqlədi. Kağızların xışıltısı otağın sükutunu bölürdü. Hər səhifə sanki onun yaşadığı bir günü, bir ağrını, bir ümidi danışırdı. O anda anladım ki, Murad danışmayan, amma içində bütöv bir roman daşıyan insandır.

O gecə uzun müddət yata bilmədim. Kənardan baxanda adi görünən bu insanın daxilində nə qədər dərinlik olduğunu düşündüm. Sanki o, gələcəyin deyil, gələcək günlərin adamı idi – susaraq yaşayan, amma hər şeyi anlayan bir insan.

88. Cədvəli tamamlayın.

| ***Obrazlar*** | ***Obrazlarla bağlı ortaq məqamlar*** |
|---|---|
| Murad | 1. |
| “Azad” hekayəsində xarakter uyğunluğu olan obraz: | 2.<br>3. |

89. Mətnə əsasən cədvəli doldurun.

| ***Bədii təsvir və ifadə vasitələri*** | ***Əsərdən nümunə*** |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |
| 4. | |

90. Verilən əsərlərin forma xüsusiyyətləri əsasında cədvəli tamamlayın.

| ***“Bir gecənin hekayəsi”*** | ***S.Vurğun “Vaqif”*** |
|---|---|
| 1. | 3. |
| 2. | 4. |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı